# "Mən anadan Heydərçi doğulmuşam"



**Azər Rəsul,**
*Prof. ng. Dr. Sc Elm və Texnika üzrə laureat, Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri, Beynəlxalq Diaspor Mərkəzinin (BDM) Avropa təmsilçisi*

**Dünya şöhrətli, müdrik və uzaqgörən siyasətçi, ötən əsrin və yaşadığımız iyirmibirinci əsrin nadir şəxsiyyətlərindən olan ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli, titanik, bəşəri, beynəlxalq aləmdə əks-səda doğuran siyasi-ictimai fəaliyyətini təhlil etmək, açıqlamaq bir mövzuya sığmaz.**

Həqiqətən tarixdə Heydər Əliyev kimi universal siyasətçilər çox azdır. Həm də bu şəxsiyyətlərə dəyər vermək özü böyük bir başlanğıcın əsasıdır. Elə insanlar var ki, böyük, nəhəng insanlara qəlbən, ruhən bağlıdırlar. Uzun müddətdir tanıdığımız, şəxsiyyətinə və yaradıcılığına hörmət qoyduğumuz çox hörmətli şairimiz Eldar Həsənli də belə insanların sırasındadır. Onun Heydər Əliyev şəxsiyyətinə sevgisi çoxumuzda heyrət doğurur. Bu sevgini biz onun şeirlərində, məqalələrində və hətta adi söhbətlərində də aydın görürük.

Yaxşı yadımızdadır, 1992-ci ildə - o zaman ki, Heydər Əliyevə qarşı bəzi mənbələr laqeyd münasibətdə idi, insanların çoxu hətta yanlarında onun adının çəkilməsindən belə ehtiyat edirdilər. O məqamda "Mən anadan Heydərçi doğulmuşam" deyən şairimiz Eldar Həsənli 10 oktyabr 1992-ci ildə heç nədən, heç kimdən çəkinmədən "Bütöv Türk dünyasının babası - Heydər baba!" deyə hayqırırdı. O an böyük şairimiz Eldar Həsənlidən soruşdum ki, səni Heydər Əliyevçi olmağa nə vadar edib? O, qıyqacı baxışla mənə baxaraq özünəməxsus duruşuna özünəməxsus görkəm verib dedi: "Mən Heydər Əliyevçi doğulmuşam". Təxminən beş-on saniyə susdu. İşıq qonmuş gözlərini heyrət sarmış gözlərimə dikdi və yenə də özünəməxsus tərzdə cavab verdi: "Mən Heydər Əliyevçi doğulmuşam!" Əslində, bu bir kəlmə ifadə bizə çox şeyi anladırdı... Hörmətli şairimiz Eldar Həsənlinin böyük Heydər Əliyevçi olduğunu "Bütöv Türk dünyasının babası - Heydər baba!" əsəri də təsdiqləyir. Bu əsər həcmcə az olsa da, böyük əlamətləri və dünyaca böyük dəlilləri özündə aşkar edir, bizi Eldar Həsənli ədəbi fəhminin səmimiyyətinə inandırır:

*Azərbaycan səslənir sənin adın gələndə,*
*Bir ehtiram bəslənir sənin adın gələndə,*
*Bir millət əzizlənir sənin adın gələndə,*
*Bu Vətənə, bu xalqa olmusan sipər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

*Sən, ey şah vüqarımız, sən, ey dağ qüruru-muz,*
*Ey damarda qanımız, ey gözlərdə nurumuz,*
*Düşüncəmiz, duyğumuz, hissimiz, şüurumuz,*
*Dizdə taqət, qolda güc, ey canda hünər baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

*Sən qoşa bir zirvəsən Heydərbaba dağıyla,*
*Sən dünyada məşhursan Azəri qaynağıyla,*
*Gəlmisən yer üzünə ancaq sülh sorağıyla,*
*Səpdiyin hər bir toxum cucərər, bitər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

Ulu öndərin qurduğu tarixi-siyasi irs illər sonra öz bəhrəsini verdi. Bugünkü Azərbaycan məhz həmin ənənənin təməli üzərində bərqərardır.

*Sən biçimdə dünyaya özgəsi gələ bilməz,*
*Şərik çıxıb dərdinə tən yarı bölə bilməz,*
*Sənə qarşı millətin istəyi ölə bilməz,*
*Zaman bir də yetirməz sənin kimi ər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

*Özünü siyasətçi sananlardan incimə,*
*Allahını qəlbində dananlardan incimə,*
*Ağlı dayaz, duyğusuz nadanlardan incimə,*
*Vətənin dar günündə gər sinəni, gər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

*Sənin əllərindədi dərdimizin çarası,*
*Sən gəlməsən, millətin sağalarmı yarası?*
*Bir də yayıb Vətənə Gəncə - Bakı arası*
*Öz əlinlə əkdiyin çiçəkləri dər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

Eldar Həsənli haqlı olaraq yazıb ki, "Sənin əllərindədi dərdimizin çarası". Doğrudan da, xalq bir daha anladı ki, bu, bir həqiqətdir.

*Dillər, dinlər içində gəl özün qur dövləti,*
*Qoyma yad əllərində dağılmağa sərvəti,*
*Ölüm-itim, qan-qada üzdü daha milləti,*
*Al saçaqlı günəşi üstümüzə sər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*
*Həsənlinin qəlbində əbədi heykəlin var,*
*Gələcəyin əlini sıxa bilən əlin var,*
*Dünyaya şəfəq saçan nurlu, pak əməlin var,*
*Sizə haqdan pay gəlib o cürət, təpər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

Ağıllı insan tarixi şəxsiyyətlərə həmişə vurğun olur. Bu mənada, Eldar Həsənlinin "Həsənlinin qəlbində əbədi heykəlin var" deməsi zəruri-ictimai səciyyədir.

10 oktyabr 1992-ci ildə yazılmış "Bütöv Türk dünyasının babası - Heydər baba!" şeiri ümumilikdə 8 bənddir. Bu şeirdə - baxışları düzgün səmtə yönəldən bu əsərdə Eldar Həsənlinin Heydər Əliyev şəxsiyyətinə sevgisini, sədaqətini və diqqətini aydın sezirik. Şairin şeirin sonunda:

*Sizə haqdan pay gəlib o cürət, təpər, baba,*
*Bütöv Türk dünyasının babası - Heydər baba!*

deməsi də Eldar Həsənlinin ümummilli liderə rəğbətinin bariz-poetik təcəssümüdür.

Eldar Həsənli ilə redaksiyada, dəhlizdə tez-tez görüşürük. Nədən danışır-danışsın, hansı mövzudan bəhs edir-etsin, fikirlərinin əsas məntiqini Heydər Əliyevə sevgisi ilə cilalayır. Doğrusu, hər dəfə söhbət əsnasında o, bu vacib fiki rləri diqqətimizə çatdırır: "Ulu öndərimiz həyatı boyu gərgin çalışıb, mükəmməl ictimai və siyasi təcrübə qazanıb. Həmin təcrübə bugünkü Azərbaycan Respublikasının yeni dövlətçiliyinin möhkəmlənməsində, iqtisadiyyatın inkişafında və s. özünü açıq göstərir. Biz Heydər Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğunu onun ideyası olan və düzgün işlənib hazırlanmış "Dövlət Neft Strategiyası" adlı uğurunda bir daha görürük...".

Eldar Həsənlinin Heydər Əliyev şəxsiyyətinə xüsusi sevgisi var. Bunu aşağıdakı misralarda da aydın görürük:

*Vətəni müstəqil görmək həmişə*
*Ulu öndərimin qanından keçib.*
*Bu xalqın, millətin başdan-ayağa*
*Ağrısı-acısı canından keçib.*

*Nə gizlin deyildi, nə də qaranlıq,*
*Onun qüdrətindən hər kəs halıydı.*
*Dərin zəkasıyla, cəsarətiylə*
*Öndər bu Vətəni qorumalıydı.*

*Yaxşıya, yamana qiymət verən var,*
*Öndərin zəhməti itəsi deyil.*
*Dolanıb gəzmişəm mən bu dünyanı,*
*Bu çiçək yenidən bitəsi deyil.*

*Azadlıq əzmiylə vurdu ürəyi,*
*Biryolluq kökünü kəsdi zillətin.*
*Xalq ona inandı, inam gətirdi,*
*Həmişə önündə getdi millətin.*

*Əzimkarlıq edib çətin zamanda*
*Xalqı bir araya gətirə bildi.*
*Qara tikanların kəsib kökünü*
*Yenidən gül-çiçək bitirə bildi.*

*Öndərə fiziki cəhd olunsa da,*
*Yolundan, irzindən öndər dönmədi.*
*Tanrının hökmüylə yanan bu çıraq*
*Bir gündə, bir anda əsla sönmədi.*

Bu bənddə o dövrdə ulu öndərə qarşı olan təhdidlər mənə tapır. Lakin tarix sübut etdi ki, yalnız Heydər Əliyev Azərbaycanı düşdüyü bəlalardan qurtara bilər və belə də oldu.

*Gecə saat üçdə ulu öndərin*
*Səsinə səs verib gələn biz olduq.*
*Əyilməz, yenilməz cürətimizlə*
*Düşmənin bağrını dələn biz olduq.*

*Dərhal bu çağrışa səs verdi Vətən,*
*Gəncədən, Qubadan gələnlər oldu.*
*Naxçıvan hiddətlə ayağa qalxdı,*
*O gecə meydanda ərənlər oldu.*

Xalq Heydər Əliyevin siyasi fəaliyyətinin dərinliyini anladığı üçün Vətənin dar günündə onu təkidlə hakimiyyətə dəvət etdi. Və bu təkid səmərə verdi.

*Heç nədən, heç kəsdən çəkinmədi o,*
*Həmişə şax dedi sözünü öndər.*
*Müstəqillik əldə etdiyi gündən*
*Xoşbəxt hiss edirdi özünü öndər.*

*Bu heyrət doğuran təhlükələrdə*
*İlhamla birlikdə baş-başa getdin.*
*Haqqın var, haqqını Tanrı qorusun,*
*Hopdun meydanlarda yaddaşa, getdin.*

*Öndər çöx əsərlər yarada bildi,*
*İki əsərinə qurbandı canım.*
*Biri Prezident İlham Əliyev,*
*Birisi müstəqil Azərbaycanım.*

Bu bənddə Eldar Həsənli Heydər Əliyevin Azərbaycan üçün etdiklərini, qurub-yaratdığı tarixi həqiqətləri önə çəkir və poetik dildə şərh edir. O həqiqətlər ki, artıq bütün dünya görür və faydalanır.

"Azərbaycanlıyam" rədifli əsərində hörmətli şairimiz Eldar Həsənli ulu öndərin ölüm səbəbini belə cavablandırır:

*Ahəstə addımlayın, orda bir bəşər yatıb,*
*Milətin taleyini düşünən bir ər yatıb.*
*Orda Heydər uyuyub, o yerdə öndər yatıb,*
*Cənnətdir bax, bu torpaq, fəxri xiyabanlıyam,*
*Azərbaycanlıyam!*

Eldar Həsənlinin Heydər Əliyev siyasi irsinə, layiqli varisi İlham Əliyevə daim böyük rəğbəti olub və bu gün də var. Elə aşağıdakı "Məğrur dayanmısan öz səngərində" adlı şeirin iliq misralarında da biz bu zəruri prosesi aydın sezə bilirik. Şeir bütünlükdə ölkə Prezidenti İlham Əliyevin siyasi uğurunu təqdir edir:

*Bir çinar gövdəsi, bir dağ qüruru,*
*Bir palıd dözümü var ləngərində.*
*Bir quş uça bilməz səmadan belə,*
*Məğrur dayanmısan öz səngərində.*

*İlham keçən yolu keçən olmayıb,*
*Odur şərqdən qərbə sürən atını.*
*Böyük şəxsiyyətin davamçısıdı,*
*Xalqına bəxş edib öz həyatını.*

*Bayrağı səmada dalğalandıran,*
*Bayrağı üç rəngə boyan özüdü.*
*Onun zəkasına söykənmişik biz,*
*Hər şeyi səmtinə qoyan özüdü.*

*Sübuta, dəlilə nə ehtiyac var,*
*Saraylar, körpülər göz önündədi.*
*Siyasi səhnədə rəqibi yoxdur,*
*İlhamın əbədi özü öndədi.*

*Ayrı yolu yoxdu, ayrı çarəsi,*
*Məcburdu dinləsin dünya, İlhamı.*
*Bir addım kənarda qalan görmürəm,*
*Onun ətrafında birləşib hamı.*

Doğrudan da, artıq dünya bu gün İlham Əliyevlə, onun timsalında Azərbaycanla hesablaşır. Bu, xalqımızın başucalığıdır və Eldar Həsənlinin "Ayrı yolu yoxdu, ayrı çarəsi, Məcburdu dinləsin dünya, İlhamı" deməsi də əsl reallıqdır.

*Vətəni İlhamsız kəşf etmək, azı*
*Ağılsızlıq olar, nadanlıq olar.*
*Onunla əl-ələ verməsək əgər*
*Bizim taleyimiz bir anlıq olar.*

*Əlvan-əlvan çiçək gördük qorxusuz,*
*Çiçəklərin təzəsisən, təzəsi.*
*Yüz illər, min illər ötüb keçsə də,*
*İlham Heydər oğlu, sən bəşərisən.*

*Başqa adı yoxdu, xoş hallarına*
*Tarixi tarixə daşıyanların.*
*Adları həkk olub daş kitabədə,*
*Millət deyə-deyə yaşayanların.*

*Aradan azacıq illər ötsə də,*
*Bir çoxları bu sözləri unudur.*
*Çingiz Aytmatov gəlişi demir:*
*İlham əsrimizin etalonudur.*

*Gəlişi söz deyil İlham Əliyev,*
*Havamız, suyumuz, çörəyimizdi.*
*O, bizim hər yerdə, hər addımbaşı*
*Əbədi döyünən ürəyimizdi.*

*Mənim qanımdadı, xislətimdədi,*
*Zərrəcə mətləbdən yayınmaram mən.*
*Milyonlar şərikdi mənim fikrimə,*
*Harda İlham varsa, orda varam mən.*

Çox istedadlı şairimiz Eldar Həsənlinin yuxarıda qısaca şərh etdiyimiz şeir parçalarında Heydər Əliyev epoxası, müstəqil Azərbaycan dövlətçiliyi və bu siyasi xətti uğurla davam etdirən İlham Əliyev fenomeni dərin mənalarla diqqət çəkir. Şair milli qurucuğunun lideri kimi xalqın böyük əzm və etimadına layiq olan Heydər Əliyevin, böyük dövlət xadiminin fədakar əməyini, dühasını lazımınca təqdir edir. Ardınca Azərbaycan tarixində, xalqın yaddaşında müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və sərkərdə kimi yer tutan böyük vətəndaş İlham Əliyevin siyasi iradəsini poetik müstəvidə səciyyələndirir. Yuxarıdakı əsərləri oxuduqca bir daha əmin oluruq ki, milli dövlət və milli lider müasir tarixin fenomenləridir. Bu da o anlamı özündə geniş ifadə edir ki, Heydər Əliyev aramızdan cismən getsə də, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, bizdən öndə addımlayır, yaşayır. Bu uğurlu əsərə görə istedadlı şairimiz Eldar Həsənliyə minnətdarlıq edir, onun yaradıcılığını yüksək qiymətləndiririk. O, müstəqil Azərbaycan əbədiyyatında öz dəsti-xəttini təsdiq edən şairlərimizdəndir və qələmə aldığı əsərlər bir örnək kimi təqdir olunmalıdır. Qeyd: Yuxarıdakı şeirdə maraq doğuran əsas cəhət budur ki, Eldar Həsənli hələ 1992-ci ildə - üzərində təhlil apardığım bu əsəri yazarkən sanki öncəgörücülük etmiş, İlham Əliyevin illər sonra hansı yüksək əzmlə dövlət üçün nələr edəcəyini, onun tarix yazacağını, yenilməz sərkərdə olacağını, Azərbaycana daha böyük qələbələr bəxş edəcəyini qabaqcadan ifadə etmişdir. Bu gün həmin an yaşanır. İlham Əliyevin və Müzəffər Ordumuzun sayəsində 44 günlük Vətən müharibəsi zamanı işğal altındakı torpaqlarımız düşməndən geri alınıb. Azərbaycan 200 ildən sonra bütöv dövlət ola bilmək xoşbəxtliyi yaşayır. Xalqımız tariximizin Zəfər anını qeyd edir.

İstedadlı şairimiz Eldar Həsənlinin böyük məhəbbətlə təhlil eydiyim "Mən anadan Heydərçi doğulmuşam" əsərini bütövlükdə ümummilli lider Heydər Əliyevin 100 illiyinə layiqli töhfə hesab etmək olar.